# Xalqın taleyində çox önəmli bir gün

## 18 il öncə – 2003-cü il oktyabrın 15-də İlham Əliyev ilk dəfə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir

***Yeni əsrin əvvəllərində xalqımızın tarixində baş verən ən mühüm və unudulmaz hadisələrdən biri dünya şöhrətli siyasətçi, ulu öndər Heydər Əliyevin siyasi kursunun ən layiqli davamçısı İlham Əliyevin ümumxalq səsverməsi yolu ilə ölkə Prezidenti seçilməsi oldu. Xalq bu seçkilərlə bir daha Heydər Əliyev siyasətinə, onun inkişaf strategiyasına və ideallarına sədaqətini nümayiş etdirdi, bu yolun alternativsiz olduğunu göstərdi. Bu, ümidin inama döndüyü, inamın yeni-yeni qələbələrə yol açdığı bir gün idi.***

***Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli ləyaqətimizi bərpa etdik. Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır. Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***



Ötən illər xalqın öz zənnində qətiyyən yanılmadığını sübut etdi. İlham Əliyev böyük inam, ilham və qətiyyət qanadlarında daha bir neçə dəfə Prezident seçildi. İndi artıq Azərbaycan dünyada qalib ölkə, xalqımız qalib xalq, rəhbərimiz müzəffər Ali Baş Komandan kimi tanınır. Daha başımızı dik tutub gəzirik, regionda lider dövlətin vətəndaşlarıyıq, üzü daha uca zirvələrə, daha böyük zəfərlərə doğru gedirik.

Ümummilli lider 2003-cü il seçkiləri ərəfəsində xalqa etdiyi müraciətində bildirmişdi: “İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”. Ulu öndər ürəkdən inanırdı ki, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyət olan İlham Əliyev xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcək və Azərbaycan, həqiqətən də, dünyaya Günəş kimi doğacaq.

Tezliklə unudulmaz dahi şəxsiyyətin ümidləri, onun siyasi xəttinə səs verən xalqın inamı özünü artıqlaması ilə doğrultdu. İlk dəfə ölkə Prezidenti seçilərkən – “Mən hər bir azərbaycanlının Prezidenti olacağam,” – deyən cənab İlham Əliyev ölkəyə rəhbərlik etdiyi illərdə fədakar bir kapitan kimi, Azərbaycan adlı gəmini zamanın fırtınalarından çıxararaq, siyasət okeanının nəhəng aysberqlərdən qoruyaraq qətiyyətlə irəli apara bildi. Gördüyü heyrətamiz işlərlə bir daha sübut etdi ki, birmənalı olaraq, ölkədə hər kəsin sevimli Prezidenti, sönməz ümidi və güclü pənahıdır. Bu gün hər bir azərbaycanlı fəxr edir ki, onun məhz İlham Əliyev kimi qüdrətli, xarizmatik lideri, vüqarlı bayraqdarı var.

Burada dövlətimizin başçısı İlham Əliyevin Prezident kimi mətbuata verdiyi ilk müsahibəsində söylədiyi fikirləri də xatırlamaq yerinə düşər. Onun Cənab Prezident, artıq Siz and içdiniz, indi ölkənin birinci şəxsisiniz və hansı hissləri keçirirsiniz? sualına cavabı son dərəcə səmimi təsir bağışlamışdı: “Gərək mən ümidləri doğruldam... Qarşımda çoxlu vəzifələr var, çoxlu işlər görmək əzmindəyəm. Bütün bunlar haqqında düşünürdüm... Bu da təbii idi ki, keçmişdə gördüyüm işlər haqqında düşünürdüm. Həyatımın artıq növbəti və elə bil ki, sonuncu mərhələsi başlanır. Çünki bundan yuxarı vəzifə yoxdur. Bu, elə bir zirvədir ki, əlbəttə, mən bu zirvədə duraraq, təkcə özümü deyil, bütün Azərbaycan xalqını beynəlxalq aləmdə təmsil edəcəyəm. Əlbəttə, bu, mənim çiyinlərimə əlavə məsuliyyət yükü qoyur”.



Dövlətimizin başçısı İlham Əliyev bu məsuliyyətin öhdəsindən uğurla gələ bildi. Ötən 18 ilə ötəri nəzərlə belə bir ümumiləşdirmə apara bilərik ki, bu gün Prezidentimizin müdrik siyasəti nəticəsində Azərbaycan ən yüksək zirvələri fəth etməklə, məhz ulu öndər Heydər Əliyevin görmək istədiyi dövlətə çevrilmişdir.

Möhtərəm Prezidentimizin rəhbərliyi ilə bütün dünyaya örnək olacaq səviyyədə xalq–iqtidar birliyinə nail olmuş, sülhün və əmin-amanlığın hökm sürdüyü məkana çevrilmiş Azərbaycan dövləti yenicə başa çatmış Vətən müharibəsində qazandığı şanlı Qələbənin ruhu və ovqatı ilə daha da qüdrətlənəcək, parlaq sabahlara, zəfərlərə doğru əzmlə, inamla irəliləyəcək. Artıq dünyada modern hərbi əməliyyatlar kimi öyrənilən, dərsliklərə salınan ayyarımlıq zəfər yürüşü – “Dəmir yumruq” əməliyyatı zamanı cənab İlham Əliyev bir gün belə hərbi libasını dəyişmədi. Həm Ali Baş Komandan kimi, həm də dünya səviyyəli diplomat kimi atdığı addımlarla, verdiyi bəyanatlarla, televiziya vasitəsilə etdiyi çıxışlarla dünyanı heyran qoydu. Hər gün Prezidentin xalqa növbəti müraciətini gözləyir, müjdə dolu xəbərləri məhz onun dilindən eşidir, sevinclə hayqırır, qəhrəman əsgər və zabitlərimizə ulu Tanrıdan daha çox güc, qüvvət, əzm diləyirdik. O tarixi anlar, o gözəl həyəcanlar unudulmazdır. Hər dəfə işğaldan azad olunan ərazilərimizdə qaldırılan üçrəngli, Ay-ulduzlu bayraqlarımız anındaca qəlbimizdə əsən qürur və iftixar mehləri ilə bəxtəvərcəsinə dalğalanırdı.

Bütün bunların təməlində 18 il əvvəl ölkədə keçirilən Prezident seçkilərində etdiyimiz ən düzgün seçim durur. Həmin vaxt ilk dəfə Prezident seçilən cənab İlham Əliyevin mübarizələrdə keçən həyatının İlahi bir qüdrətlə kodlaşdırılan və əzmlə gerçəkləşdirilən həlledici məqamları durur. Azərbaycan xalqı daim sülhün, sabitliyin, əmin-amanlığın, tərəqqinin, quruculuğun tərəfində olub və bu gün də həmin mövqeyindədir. Təsadüfi deyil ki, Amerika Birləşmiş Ştatları, Türkiyə, Rusiya, Almaniya, Çin, Yaponiya və digər ölkələr İlham Əliyevin hər dəfə prezident seçilməsini çox uğurlu addım kimi qiymətləndiriblər. Dünya dövlətlərinin böyük əksəriyyəti çağdaş Azərbaycanla rasional əməkdaşlığa hazır olduqlarını bəyan ediblər.

Zəngin və qüdrətli Azərbaycan uğrunda çağırışı ilə milyonları öz ətrafında toplayan İlham Əliyevin yürütdüyü siyasət nəticəsində ölkəmizdə demokratik, hüquqi dövlət quruculuğu prosesi uğurla həyata keçirilib. Hazırda isə erməni işğalından azad edilmiş dogma Qarabağımızın şəhər və rayonlarında aparılan genişmiqyaslı bərpa-quruculuq işlərimiz yenə də dünyanı heyran qoymaqdadır. Başlıca amal, əsas qayə, aşkar məram üstündən qaçqın-köçkün adının götürülmüş olduğu soydaşlarımızın tezliklə Böyük Qayıdışını reallaşdırmaqdır. 2008-ci ildə ikinci dəfə prezident seçildiyi zaman “Bizim uğurlarımızın əsas mənbəyi Azərbaycan xalqının fəaliyyətidir, Azərbaycan xalqının iradəsidir”, – deyən cənab İlham Əliyevin güclü siyasəti sayəsində bu həqiqət özünün təsdiqini dönə-dönə tapmışdır.

Dövlətimizin başçısı çıxışlarında dəfələrlə vurğulamışdır ki, biz nə beynəlxalq təşkilatların, nə də güclü dövlətlərin yardımına, kreditlərinə ehtiyac duyuruq. Öz əzmimiz, bir də dost və qardaş ölkələrin mənəvi dəstəyi nailiyyətlərimizi müəyyənləşdirən əsas amillərdir. Budur bizə ruh verən, qol-qanad verən!

Ötən illər Azərbaycanda bütün istiqamətlərdə böyük inkişafla, ölkəmizin bölgədə və dünyada mövqelərin gücləndirməsi ilə müşayiət olunub. Müstəqilliyimiz və ideoloji dayaqlarımız daha da möhkəmlənib, ölkədə güclü vətəndaş həmrəyliyi bərqərar olunub. Bütün bunların təməlində Azərbaycan dövlətinin milli maraqlarının qorunması dayanıb. Prezident İlham Əliyevin yürütdüyü siyasət Azərbaycanın müttəfiqlərinin və dostlarının sayını artırıb. Azərbaycan beynəlxalq müstəvidə yerini layiqincə möhkəmləndirib. Regional təşəbbüslər həm mövqelərimizin güclənməsinə, həm də bölgədəki əməkdaşlığın inkişafına xidmət edib. Azərbaycan Prezidentinin yürütdüyü uğurlu xarici siyasət nəticəsində ölkəmiz BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilib, beynəlxalq təşkilatlar Ermənistanı işğalçı dövlət kimi tanıyıb. Qoşulmama Hərəkatına Azərbaycanın sədrliyinin daha bir il artırılması elə ölkəmizin beynəlxalq nüfuzunun durmadan artdığının bariz göstəricisidir. İslam Əməkdaşlığı Təşkilatındakı üzvlüyümüz haqq işimizin dünyada tanıdılmasında mühüm rol oynayıb. Avropa İttifaqı ilə əməkdaşlığın da üfüqləri daim genişlənir. Azərbaycan Prezidentinin beynəlxalq müstəvidə bütün prinsipial məsələr üzrə ortaya qoyduğu birmənalı qətiyyətli mövqeyi tam təsdiqləyib ki, Qarabağın Azərbaycandan ayrılma mexanizmi yoxdur.

Azərbaycanda ordu quruculuğu istiqamətində illərcə həyata keçirilən tədbirlər, güclü müdafiə sənayesinin qurulması, Silahlı Qüvvələrimizin hərbi hazırlığının və gənclərin vətənpərvərliyinin güclənməsi ilə bağlı görülən işlər bəzi dairələrin Qarabağın Azərbaycandan qoparılmasına dair ümidlərini puça çıxarmış və böyük qələbəmizi təmin etmişdir. İki yüz illik bir dövr ərzində ilk dəfə olaraq biz müharibədə möhtəşəm qələbə qazanaraq, əzəli–əbədi torpaqlarımızı güclü havadarları olan faşist xislətli düşmənin cəngindən qoparmış, tariximizin ən şərəfli, ən şanlı səhifələrini şəhidlərimizin qanı ilə yazmışıq.

Ölkəmizin iqtisadi uğurları böyük hədəflərimizi əlçatan edib. Valyuta ehtiyatlarımızın, o cümlədən Azərbaycana qoyulan sərmayələrin həcmi artıb, güclü sahibkarlıq sinfi yaranıb. Regionların sosial-iqtisadi inkişafına dair həyata keçirilən dövlət proqramları sayəsində bölgələrdə inkişaf prosesləri vüsət alıb, kənd təsərrüfatının müxtəlif sahələri ilə bağlı konkret proqramlar icra olunub. İşsizliyin və yoxsulluğun səviyyəsi aşağı düşüb, yeni iş yerləri yaradılıb. Ölkədə qeyri-neft sektorunun inkişafı neft siyasətinin məntiqi davamı olub. Güclü iqtisadiyyatın hər bir ölkənin inkişafında mühüm amil olduğunu bəyan edən Prezident İlham Əliyev ölkəmizdə qeyri-neft sektorunun çəkisinin artırılması ilə bağlı konkrtet əməli tədbirlər görüb. Nəhəng infrastruktur layihələrinin, Olimpiya idman komplekslərinin inşası gənc nəslin sağlamlığının qorunmasına mühüm töhfələr verib. Yüzlərlə səhiyyə ocağının, müalicə-diaqnostika mərkəzlərinin inşası səhiyyə sisteminin inkişafını göstərir. Ölkədə minlərlə məktəb tikilib, təhsil müəssisələrinin maddi-texniki bazası gücləndirilib. Azərbaycanda nəqliyyat sisteminin yenidən qurulması ölkəmizin dünyaya çıxışını təmin edib. Bütün bunların təməlində isə uğurlu enerji siyasəti dayanıb.

Bu gün Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayan Azərbaycan Cənub Qaz Dəhlizi layihəsinin aparıcı qüvvəsi kimi çıxış edir. Xəzərin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarının birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında yeni sazişin imzalanması ölkəmizin dünya enerji sənayesində həlledici amil olduğunu bir daha təsdiqləyib. Bakı – Tbilisi – Qars dəmir yolunun açılışı kimi çox böyük tarixi hadisə baş verib. Ötən illərdə Azərbaycan, həm də Asiyanı Avropa ilə birləşdirən mühüm yolların çəkilməsinə, digər nəhəng layihələrin icrasına da nail olub. Qarşıda Zəngəzur dəhlizinin açılması kimi vacib əhəmiyyətli bir vəzifə durur ki, onun da reallaşdırılması sayəsində regional kommunikasiya əlaqələri daha da genişlənəcək.

Azərbaycançılıq fəlsəfəsi İlham Əliyev siyasətinin mənəvi dayağına çevrilib. Möhtərəm Prezidentimizin yürütdüyü siyasət çağdaş Azərbaycanın daha da güclənməsinə, milli-mənəvi dəyərlərimizin ən yüksək səviyyədə qorunmasına xidmət edir. Dünyada tolerantlıq məkanı kimi tanınan Azərbaycan cənab İlham Əliyevin xidmətləri sayəsində mədəniyyətlərarası və sivilizasiyalararası dialoq məkanı kimi tanınır.

Dövlətimizin başçısı əhalinin sosial firavanlığını daim diqqətdə saxlayır. Prezidentin apardığı sosial siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Son bir il ərzində Prezidentin imzaladığı fərman və sərəncamlar əsasında həyata keçirilən böyük sosial paketlər vətəndaşlarımızın yaşayış səviyyəsinə öz müsbət təsirini göstərmişdir. Minimum əməkhaqqı təxminən 2 dəfə artırılıb. Həmçinin 300 mindən çox əlilliyi olan şəxsin, 500 minə qədər məcburi köçkünün, 100 mindən çox tələbə və gəncin, ümumilikdə 1,3 milyon insanımızın gəlirləri də əhəmiyyətli şəkildə çoxalıb. Qazilərimiz dövlət tərəfindən ən yüksək səviyyədə müalicə və reabilitasiya prosesi keçirlər. Ölkəmizdə davam etdiriləcək sosial tədbirlərə xərclənən vəsaitlərin həcmi ilbəil artır.

Liderlik bacarığı elə bir keyfiyyətdir ki, xalqın, dövlətin milli maraqlarını qorumaqla yanaşı, ölkəni davamlı şəkildə inkişaf etdirir, yorulmadan irəliyə doğru apara bilir. Bu mənada Azərbaycan xalqı çox xoşbəxtdir ki, ölkəmizə məhz Heydər Əliyev siyasi məktəbinin ən layiqli davamçısı olan möhtərəm İlham Əliyev rəhbərlik edir. Azərbaycan özünün qalibiyyət, intibah və çiçəklənmə dövrünü yaşayır. 2003-cü ildən ölkəmiz Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi siyasətlə inkişafının zirvə məqamına yüksəlir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bir sıra qabaqcıl ölkələrin onilliklər boyu keçdiyi inkişaf mərhələsini sürətlə adlayaraq, postsovet məkanında ən öncül bir mövqeyə yiyələnib.

Ötən il noyabrın 10-da Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri arasında qəbul edilmiş üçtərəfli bəyanatla Ermənistanın faktiki olaraq kapitulyasiya sənədinə imza atması, Azərbaycanın regionda yeni siyasi reallığın müəllifi olması bir daha sübut etdi ki, ölkəmizlə güc dilində danışmaq, əzələ nümayişi ilə ona hansısa şərtləri diktə etmək qeyri-mümkündür. Müstəqil və balanslaşdırılmış siyasət yürüdən Azərbaycan rəhbəri nəyi və necə etməyi özü daha yaxşı bilir.

İnanırıq ki, 2003-cü il oktyabrın 15-dən başlanan İlham Əliyev epoxası tariximizin ən şərəfli səhifələrini yazmaqda bizi hələ çox ilhamlandıracaq, daha möhtəşəm zəfərlərə qovuşduracaq. Sevimli Prezidentimizin adı ilə bağlı olan Qələbəmizdən güc alan Azərbaycan daha da qüdrətlənəcək.

***Əli NƏCƏFXANLI,***
***“Xalq qəzeti"***